AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№54 (1324), 8 - 11 sentyabr 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Fransanın paytaxtı Paris şəhərində keçirilmiş güləş üzrə dünya çempionatında Əliyev Hacı Azər oğlu və Almaniyanın Hamburq şəhərində keçirilmiş boks üzrə dünya çempionatında Məcidov Məhəmmədrəsul Yusupoviç yüksək nəticələr əldə edərək üçqat dünya çempionu adını qazanmış və Azərbaycan idmanının şöhrətini daha da artırmışlar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə üçqat dünya çempionları Hacı Azər oğlu Əliyevə və Məhəmmədrəsul Yusupoviç Məcidova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 sentyabr 2017-ci il.*

---

## Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran şəhərində Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 sentyabr 2017-ci il.*

---

## Məhəmmədrəsul Məcidov 3-cü dəfə dünya çempionu titulunu qazanıb



Almaniyada kişi boksçular arasında keçirilən dünya çempionatına yekun vurulub. Hamburq İdman Sarayında təşkil edilən mundialın son günündə 10 çəki dərəcəsində final görüşləri baş tutub.

Həlledici döyüşlərdə Azərbaycan millisinin lideri Məhəmmədrəsul Məcidov da rinqə çıxıb.

91 kiloqram çəki dərəcəsində mübarizə aparan ikiqat dünya çempionumuz qazaxıstanlı Kamşibek Kunkabayevlə üz-üzə gəlib. Döyüş təmsilçimizin qələbəsi ilə yekunlaşıb. Boksçumuz 4:1 (29:28, 28:29, 29:28, 29:28, 29:28) hesabı ilə qalib gəlib.

O, bununla da 3-cü dəfə dünya çempionu tituluna yiyələnib. DÇ-2011 və DÇ-2013-də qızıl medal qazanan boksçumuz növbəti qələbə ilə öz rekordunu da yeniləyib.

Beləliklə, 9 gün davam edən dünya çempionatını Azərbaycan millisi 2 medalla başa vurub. M.Məcidovdan əvvəl Kamran Şahsuvarlı (75 kq) adını mükafatçılar sırasına yazdırıb. Olimpiya mükafatçımız yarışı 3-cü pillədə başa vurub.

Qeyd edək ki, yığmamız Hamburqa 4 boksçu ilə yollanmışdı. Onlardan Lorenzo Sotomayor (64 kq) hakimlərin ədalətsizliyi səbəbindən medal əldə edə bilməmişdi.

---

AZERBAIJAN

**Milli Olimpiya Komitəsi** 1992 25 2017

## 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

Səh. 2

---

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"* Səh. 3

## Fiziki idman növlərinin əsasında atletika dayanır

### Paytaxtımız Avropa çempionatına ev sahibliyi edəcək

"Milli Gimnastika Arenası gələn il batut gimnastikası, tamblinq və ikili mini-batut üzrə Avropa çempionatını qəbul edəcək. Milli Gimnastika Arenası bu cür böyük yarışların keçirilməsi üçün Avropada mövcud olan ən yaxşı arenalardan biridir. Biz Bakıya, ilk növbədə, yarışların hazırlığı ilə tanış olmağa gəlmişik. Eləcə də burada texniki komitənin iclaslarını keçirəcəyik. Deyə bilərəm ki, Milli Gimnastika Arenası Avropanın ən yaxşı idman qurğularından biridir". Bu sözləri Avropa Gimnastika İttifaqının (UEG) batut gimnastikası üzrə texniki komitəsinin sədri Vladimir Zeman deyib. O, Milli Gimnastika Arenasının yarışı qəbul etməyə tam hazır olduğunu vurğulayıb.

---

## Cüdoçularımız dünya çempionatını 4 medalla başa vurdular

Macarıstanın paytaxtı Budapeştdə keçirilən cüdo üzrə dünya çempionatına yekun vurulub. Yarışda 126 ölkədən 730 (440 kişi, 290 qadın) cüdoçu mübarizə qüvvəsini sınayıb. Komandamız yarışda 17 (9 kişi, 8 qadın) cüdoçu ilə təmsil olunub. Azərbaycan cüdoçuları dünya çempionatını 4 medalla başa vurublar. Təmsilçilərimizdən Orxan Səfərov (60 kq) və Rüstəm Orucov (73 kq) yarışları gümüş medalla başa vurublar. Rio Olimpiadasının gümüş mükafatçısı Elmar Qasımov (100 kq) isə Budapeştdə bürünc medala sahib çıxıb.

Qadınlar arasında +78 kq çəki dərəcəsində mübarizə aparan İrina Kindzerskaya da bürünc medal əldə edib.

Komandamızın digər üzvləri Hidayət Heydərov (73 kq) və Elxan Məmmədov (100 kq) isə bürünc medal uğrunda görüşlərdə məğlub olaraq dünya çempionatını 5-ci yerdə bitiriblər.

Bu nəticə ilə yığmamız ölkələr sıralamasında 8-ci olub.

Yarışlar başa çatdıqdan sonra cüdo üzrə 2018-ci ildə Bakıda keçiriləcək dünya çempionatının bayrağı Azərbaycan Cüdo Federasiyasının nümayəndə heyətinə təqdim olunub. Bayrağı federasiyanın vitse-prezidenti Sadıq Sadıqov təhvil alıb.

Çempionatın bayrağının Azərbaycana təqdim edilməsi münasibətilə Macarıstanın paytaxtı Budapeştdə təntənəli mərasim keçirilib.

Tədbirdə daha sonra 2018-ci ildə Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının təqdimat videosu nümayiş etdirilib.

---

## Yeniyetmə güləşçilərin mübarizəsi davam edir

Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı keçirilir.

Yarışlara sentyabrın 4-də start verilib. İlk iki yarış günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz 1 qızıl, 2 gümüş medal əldə ediblər. Qızıl medalı komandamıza 42 kq çəki dərəcəsində mübarizə aparan Qurban Qurbanov qazandırıb. İdmançımız final görüşündə Ukrayna idmançısına qalib gələrək dünya çempionatının qızıl medalına sahib olub. Digər güləşçimiz Zaur Əliyev (50 kq) çempionatın gümüş medalına layiq görülüb. Hhəlledici görüşdə Yaponiya idmançısına güzəştə gedən idmançımız yarışı 2-ci yerdə başa vurub. Xatırladaq ki, Zaur Əliyev bir müddət əvvəl 46 kq çəkidə yeniyetmələrin Avropa çempionu titulunu qazanıb.

46 kq-da yarışan Nihad Məmmədli ancaq final görüşündə uduzaraq gümüş medalla kifayətlənib.

Beləliklə, yeniyetmə yunan-Roma güləşçilərimiz 1 qızıl və 2 gümüş medal əldə ediblər

Yarışlara sentyabrın 10-da yekun vurulacaq.

---

# Olimpizm

### Fransa prokurorluğu korrupsiya məsələsini araşdırır

Fransa prokurorluğu Beynəlxalq Yüngül Atletika Federasiyasının (İAAF) keçmiş prezidenti Lamin Diakın



oğlu Papa Massat Diakı nəhəng koorupsiya qalmaqalında günahlandırır. "Reyters" Agentliyinin verdiyi xəbərə görə, ölkənin hüquq-mühafizə orqanlarının əlində mötəbər turnirlərə ev sahibliyi seçimində İAAF və Beynəlxalq Olimpiya Komitəsi (BOK) üzvlərinin satın alınması ilə bağlı tutarlı dəlillər var.

Əvvəllər Fransa prokurorluğunun Rio-2016 Olimpiadası ilə bağlı araşdırma apardığı bildirilirdi. İstintaqın gedişi ilə bağlı Rio-de-Janeyro polisi bugünlərdə XXXI Yay Olimpiadası Təşkilat Komitəsinin sədri Karlos Artur Nuzmanın evində axtarış aparıb.

Mətbuatın yazdığına görə, prokurorluq 2020-ci ildə Tokioda keçiriləcək yay Olimpiya Oyunlarına ev sahibliyi ilə bağlı rüşvət məsələsini də araşdırır.

### Rusiyalı paralimpiyaçılar neytral bayraq altında yarışacaqlar

Rusiya paralimpiyaçıları 2018-ci ildə keçiriləcək Qış Paralimpiya Oyunlarında neytral bayraq altında yarışacaqlar. Bu barədə Beynəlxalq Paralimpiya Komitəsinin (BPK) prezidenti Filip Kreyven məlumat verib.

Mətbuat konfransında çıxış edən Filip Kreyven bildirib ki, BPK-nin İcraiyyə Komitəsi rusiyalı paralimpiyaçıların yarışlardan uzaqlaşdırılması ilə bağlı müddəti artırıb.

"Lakin biz Rusiya Paralimpiya Komitəsinin yenidən beynəlxalq təşkilatın üzvlüyünə qəbul olunması üçün səy göstərdiyini nəzərə alırıq. Bununla belə, rusiyalı atletlərə təsnifat mərhələsində yalnız neytral bayraq altında çıxış etməsinə icazə verilir. Onlar 4 idman növündə yarışacaqlar", - deyə federasiya prezidenti bildirib.



Məlumat üçün bildirək ki, BPK-nin qərarına uyğun olaraq, Rusiya paralimpiya komandası Rio-2016 Olimpiadasında iştirak etməyib.

Qış Paralimpiya Oyunları 2018-ci il mart ayının 9-18-də Cənubi Koreyanın Pxençxan şəhərində keçiriləcək.

### Tokio-2020-nin proqramında ciddi dəyişiklik

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi Tokio-2020 Yay Olimpiya Oyunlarının proqramında ciddi dəyişikliklər edib. Belə ki, triatlon, üzgüçülük və atletika idman növlərində atletlər qarışıq estafet yarışlarında da mübarizə aparmalı oolacaqlar. Ən böyük dəyişiklik atletika yarışlarında sınaqdan keçiriləcək. İndiyədək atletika üzrə keçirilən dünya çempionatlarında qarışıq estafet yarışları keçirilməyib.

TOKYO 2020

Uzun illərdən bəri Beynəlxalq Yüngül Atletika Federasiyası (İAAF) Olimpiya Oyunlarının proqramının genişləndirilməsi məsələsində yalnız kross yarışlarına üstünlük verirdi. Hətta İAAF bu idman növünün qış Olimpiya Oyunlarının proqramına daxil edilməsinə cəhd göstərib.

# Milli Olimpiya Komitəsi

*(əvvəli ötən saylarımızda)*

***Azərbaycan Milli Olimpiya Komitəsinin bu il 25 yaşı tamam olur. Yarandığı gündən etibarən beynəlxalq Olimpiya Hərəkatında özünəməxsus iz qoymağı bacaran Milli Olimpiya Komitəsi mürəkkəb və şərəfli bir yol keçib. Ötən müddət ərzində ölkənin idman və Olimpiya Hərəkatı özünün yüksək inkişaf yoluna qədəm qoyub, idman salnaməsinə qızıl hərflərlə yazılan nailiyyətlər əldə edilib. İdman və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır və yüksək səviyyəli beynəlxalq yarışlara uğurla ev sahibliyi edir.***

***Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzeti fəaliyyətə başladığı gündən Azərbaycanda idman və Olimpiya Hərəkatının təbliğinə geniş yer ayırır. Qəzet öz səhifələrində idmançılarımızın ölkə və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nailiyyətlər, qazanılan uğurlar barədə oxucuları müfəssəl məlumatlandırır. "Olimpiya dünyası" Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illiyi münasibətilə silsilə yazıları sizin diqqətinizə çatdırır.***

***Bizim nəslimizin ən böyük xoşbəxtliyi ondan ibarətdir ki, biz müstəqil dövlətdə yaşayırıq. Bizdən əvvəlki nəsillər də bu arzularla yaşamışlar. Ancaq bu arzulara çata bilməmişlər. Bizim xoşbəxtliyimiz ondadır ki, müstəqil, azad dövlətdə Azərbaycan Respublikasının vətəndaşı kimi yaşayırıq. Biz bunu qiymətləndirməliyik və müstəqilliyi hər şeydən üstün tutmalıyıq.***

***İlham ƏLİYEV***

# 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT



Azərbaycanda idmanın inkişafına göstərilən diqqət və qayğı 2008-ci ildə Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında da öz bəhrəsini verdi. Pekin Yay Olimpiya Oyunlarında ölkəmiz güləş, taekvondo, gimnastika, boks, atıcılıq, atçılıq, üzgüçülük, cüdo, atletika və ağırlıqqaldırma idman növlərində 44 idmançı ilə təmsil olundu. Yarışda təmsilçilərimiz digər Olimpiya Oyunlarından həm idmançıların, həm də qazanılan medalların sayına görə fərqləndi. Komandamız Olimpiya Oyunlarında ilk dəfə olaraq, hər üç əyarda medallar əldə etdi.

Atletlərimiz ilk dəfə olimpiadanın atçılıq yarışlarında və bədii gimnastika üzrə qrup hərəkətlərində qüvvələrini sınadılar. Bundan əlavə, Pekin-2008 qadın güləşçilərimizin mübarizə aparacağı ilk olimpiada kimi tarixə düşdü. Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) qazandırdı. Finala qədər bütün rəqiblərinə vaxtından əvvəl ipponla qalib gələn E. Məmmədli həlledici matçda koreyalı idmançını 13 saniyəyə məğlub edərək 73 kq çəkidə ən güclü oldu. Gümüş medalları yunan-Roma güləşində Vitali Rəhimov (60 kq) və Rövşən Bayramov (55 kq) əldə etdi.

Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq), qadın güləşçimiz Mariya Stadnik (48 kq), boksçumuz Şahin İmranov (57 kq), cüdoçumuz Mövlud Mirəliyev (100 kq) Pekin-2008 Olimpiya Oyunlarının bürünc medalına sahib oldular. Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.



## "Bu qələbə gözlənilən idi"

Azərbaycan idmançıları növbəti uğura Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında imza atdılar. 2012-ci il iyunun 3-də Heydər Əliyev Mərkəzində olimpiyaçıların yolasalma mərasimi keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edərək idmançılarımıza öz xeyir-duasını verdi.

Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında 204 ölkədən 10 min 957 idmançı qüvvəsini sınayırdı. Yarış iştirakçıları dünyanın mötəbər idman tədbirində 26 idman növündə 302 dəst medal uğrunda mübarizə aparırdılar. Olimpiadada iştirak edən 204 ölkədən yalnız 54-ü qızıl medal qazana bildi. Medalçı ölkələr siyahısında ABŞ, Çin və ev sahibi olan Böyük Britaniya mükafatalayiq yerləri tutdular. Azərbaycan Olimpiya yığması 10 medalla ümumi siyahıda 30-cu pillədə qərarlaşdı.

London-2012 Yay Olimpiya Oyunlarında Azərbaycan idmanın 16 növündə 53 idmançı ilə təmsil olunurdu. Velosiped, avarçəkmə, qadın boksu, idman gimnastikası yarışlarında idmançılarımız ilk dəfə idi ki, qüvvələrini sınayırdılar. Olimpiadada Azərbaycana ilk medalı ağırqaldırma yarışlarında 56 kq çəki dərəcəsində mübarizə aparan idmançımız Valentin Xristov qazandırdı. 286 kq nəticə göstərən idmançımız London-2012 Olimpiadasının bürünc medalına sahib çıxdı.

Londonda sərbəst güləş üzrə yığmamız Olimpiya medalları uğrunda 6 çəki dərəcəsində yarışırdı. Toğrul Əsgərov (60 kq) və Şərif Şərifov Olimpiya çempionu adına layiq görüldülər. Xetaq Qazyumov (96 kq) isə olimpiadanın bürünc mükafatını qazandı. Beləliklə, sərbəst güləş üzrə Azərbaycan komandası London Olimpiadasını 2 qızıl və 1 bürünc medalla başa vurdu. Ssərbəst güləş üzrə Azərbaycan yığması dünyanın aparıcı ölkələrini qabaqlayaraq ABŞ-la birgə 1-ci yeri tutdu. London-2012 Olimpiadasının qızıl medalını 20 yaşı tamam olmamış alan Toğrul Əsgərov, həm də ən gənc çempion kimi Olimpiya tarixinə düşdü.

Yunan-Roma güləşi üzrə yarışlarda yığmamızın üzvləri Rövşən Bayramov (55 kq) ikinci, Emin Əhmədov (74 kq) üçüncü yeri tutdular. Bununla, komandamız London-2012-də yunan-Roma güləşi üzrə yarışlarda 5-ci pillədə qərarlaşdı.

Qadın güləşi üzrə yarışlarda Mariya Stadnik (48 kq) gümüş, Yuliya Ratkeviç (55 kq) bürünc medal qazandılar. Bu nəticə ilə ölkəmiz qadın güləşi yarışlarında 3-cü oldu. Qeyd edək ki, London-2012 Olimpiadasının güləş proqramında 18 dəst medal uğrunda 13 atletimiz yarışdı. Güləşçilərimiz ümumilikdə 2 qızıl, 2 gümüş və 3 bürünc medalla mükafat qazanan 29 ölkə arasında 4-cü oldular. Azərbaycan Olimpiya yığması yuxarıda qeyd etdiyimiz kimi ümumilikdə, London-2012-də 10 medal (2 qızıl, 2 gümüş və 6 bürünc) qazanaraq yarışları medalçılar siyahısında 30-cu pillədə başa vurdu.

Olimpiadadan sonra Azərbaycan Prezidenti London-2012-də iştirak edən idmançılarla görüşdü. Ölkə rəhbəri idmançılarımızın Olimpiya Oyunlarında qazandıqları qələbələrə görə onlara minnətdarlığını vuğuladı və Azərbaycanın həqiqətən də idman ölkəsi olduğunu bildirdi: "Azərbaycan, sözün əsl mənasında, idman dövlətidir. London Yay Olimpiya Oyunları bunu bir daha təsdiqlədi, bir daha sübut etdi. Azərbaycan Olimpiya Oyunlarında ən böyük uğuru London Olimpiya Oyunlarında qazanmışdır. Bu Olimpiya Oyunlarında 200-dən çox ölkə iştirak edirdi. Azərbaycan bu yarışda 30-cu yeri tuta bilmişdir. Medalların sayına görə 24-cü yerdəyik. Avropa ölkələri arasında 15-ci, müsəlman ölkələri arasında isə 3-cü yerdəyik. Azərbaycan idmançıları 10 medal qazanmışlar - ikisi qızıl, ikisi gümüş, altısı bürünc medaldır. Bu, doğrudan da böyük və tarixi nailiyyətdir. Bu, Azərbaycan idmanının, Azərbaycan dövlətinin təntənəsidir. Bu qələbə gözlənilən idi. Biz idmançıları Londona yola salarkən onlardan böyük ümidlərlə nəticə gözləyirdik. Bu ümidlərin əsası var idi. Çünki biz artıq neçə ildir ki, bu qələbəyə doğru irəliləyirik. Birinci dəfə müstəqil dövlət kimi Atlantada bir medal, ondan sonra Sidneydə üç, Afinada beş, Pekində yeddi və nəhayət, Londonda on medal qazanmışıq. Əhali və ərazi baxımından bizdən bir neçə dəfə böyük olan ölkələri arxada qoyduq. Bir daha demək istəyirəm ki, bu, tarixi qələbədir. Bu qələbə idmançılarımızın qələbəsidir. Azərbaycan dövləti və xalqı adından bütün idmançılara - peşəkarlığını, Vətən sevgisini nümayiş etdirən bütün idmançılara dərin minnətdarlığımı bildirmək istəyirəm".

## Qazanılan uğurlar, əldə olunan nailiyyətlər müstəqilliyimizin bəhrəsidir

Bu gün Azərbaycanın dünyada idman ölkəsi kimi tanınması, paytaxt Bakının mötəbər beynəlxalq yarışların mərkəzinə çevrilməsi, idmançılarımızın uğurları, bir sözlə, idman sahəsində əldə olunan nailiyyətlər müstəqilliyimizin bir töhfəsidir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il dekabrın 22-də Milli Olimpiya Komitəsində ilin yekunları ilə bağlı keçirilən tədbirdə bir daha vurğulamışdır: "Bu uğurları müstəqillik dövründə böyümüş idmançılar əldə ediblər. Bu, bir daha onu göstərir ki, görün, müstəqilliyimizin nə qədər böyük mənası, nə qədər böyük üstünlükləri var. Azərbaycan idmançıları tarixdə heç vaxt bu qədər qələbələr qazanmamışlar. Ancaq müstəqillik dövründə, Azərbaycan xalqının öz taleyini öz əlində saxladığı dövrdə biz buna nail ola bilmişik. Əminəm ki, biz bundan sonra da ardıcıllıqla bu uğurlara imza atacağıq. Gənc idmançılarımızın uğurları tarixi nailiyyətdir. Əminəm ki, onlar böyüdükcə bu uğurları təkrarlayacaqlar".

Daim idmançıların yanında olan, onlardan diqqət və qayğısını əsirgəməyən ölkə başçısı müstəqilliyi ölkəmiz, xalqımız üçün ən böyük sərvət adlandırıb. Azərbaycan Prezidenti ölkəmizin ev sahibliyi IV İslam Həmrəyliyi Oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşündə deyib: "Bizim uğurlarımızı əldə edən idmançılar müstəqillik dövründə yetişiblər. Bir çoxları müstəqillik dövründə doğulublar, müstəqillik illərində bu nailiyyətlərə gəlib çıxıblar. Bu, bir daha onu göstərir ki, müstəqillik bizim ən böyük sərvətimizdir. Bizim xalqımızın çox böyük tarixi var. Ancaq müstəqillik tariximiz müasir dövrdə o qədər də böyük deyil. Biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq və idman sahəsində, iqtisadi, sosial və digər sahələrdə görün, nə qədər böyük uğurlar əldə etmişik. İdman isə ölkələrin gücünü, siyasətini göstərir, xalqların gücünü göstərir. Sovet dövründə heç vaxt bizim ağlımıza gələ bilməzdi ki, Azərbaycan idmançıları bu qədər medal qazanacaqlar, Olimpiya Oyunlarında bu qədər qələbələr qazanacaqlar, müsəlman aləmində birinci, Avropa ölkələri arasında ikinci olacaqlar. Bütün bunlar ancaq müstəqillik dövründə mümkün olub. Ona görə, bu qələbə bir daha onu deyir və göstərir ki, ancaq müstəqillik dövründə xalqımız uğurla inkişaf edə bilər. Ancaq taleyimiz öz əlimizdə olduğu təqdirdə Azərbaycan xalqı sürətlə inkişaf edə bilər".

Azərbaycan Prezidenti İlham Əliyev Olimpiya Oyunlarında, eləcə də mühüm əhəmiyyət kəsb edən beynəlxalq yarışlarda qələbə qazanan idmançıları, milli komandamızın üzvlərini yarışlardan sonra qəbul edir, onlarla görüşür. Belə görüşlərdən biri də 2015-ci il fevralında İranda yunan-Roma güləşi üzrə Dünya kuboku yarışlarından sonra baş verdi. Komandamız vətənə çempion kimi qayıtdıqdan sonra Azərbaycan Prezidenti milli komandamızın üzvlərinin qəbul etdi. Ölkə başçısı qəbul zamanı Azərbaycanın idman qüdrətinin günü-gündən artdığını vurğulayaraq demişdir: "Bütövlükdə Azərbaycanda idman sahəsinə göstərilən diqqət öz nəticələrini verməkdədir. Azərbaycan idman dövlətidir. Bütün mötəbər beynəlxalq idman qurumları, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, dünya idman federasiyaları bunu qeyd edirlər ki, Azərbaycan idman sahəsində çox böyük uğurlara imza atmışdır və bu, həqiqətən də belədir. Çünki baxın, Olimpiya Oyunlarında, dünya miqyasında Azərbaycan 30-cu yerdədir, yeniyetmələrin Olimpiya Oyunlarında 200 ölkə arasında Azərbaycan 10-cu yerdədir. Azərbaycanda dünya və Avropa çempionatları ən yüksək səviyyədə keçirilir və bütün qonaqlar bunu qeyd edirlər. Bizim idmançılarımız hər il medalların sayına görə liderlik göstərirlər, həm Olimpiya, həm qeyri-Olimpiya idman növləri üzrə medalların sayı ildən-ilə artır".

## Azərbaycan dünyanın idman mərkəzlərindən biridir

Dünyanın idman mərkəzlərindən birinə çevrilən ölkəmiz beynəlxaq səviyyəli mötəbər tədbirlərə müntəzəm ev sahibliyi edir. Bu, artıq bir ənənə halını alıb. 2015-ci il noyabrın 21-22-də paytaxt Bakıda Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasının keçirilməsi Azərbaycanın dünyada artan nüfuzunun göstəricisidir. Baş Assambleyada Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Avropa olimpiya komitələrinin rəhbərləri iştirak edirdilər. Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyası qarşıdakı dövrdə həllini gözləyən bir çox məsələlərin müzakirə olunması və həyata keçirilməsi baxımından mühüm tədbir idi. Avropa ölkələrinin milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin, beynəlxalq idman qurumlarının rəhbərlərinin iştirak etdikləri Assambleyada "Olimpiya Oyunları", "Marketinq və rabitə", "İdman hamı üçün", "Olimpiya mədəniyyəti və irsi", "Tibb və antidopinq", "İdmanda gender bərabərliyi" və digər mövzularda hesabat məruzələri, o cümlədən ilk Avropa Oyunları barədə məlumat və Bakı-2015 Əməliyyat Komitəsinin hesabatı da dinlənildi. 2016-cı ildə Rio-de Janeyroda keçiriləcək Yay Olimpiya Oyunları, XXIII Qış Olimpiya Oyunlarına və Avropa Yeniyetmələrinin Olimpiya Festivalına hazırlıq işlərinin gedişi ilə bağlı hesabatlar da Assambleyanın gündəliyinə daxil idi. Azərbaycan Prezidenti İlham Əliyev Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasında çıxış etdi. Ölkə rəhbəri Azərbaycanda idman və Olimpiya Hərəkatının inkişafından, idmançılarımızın beynəlxalq yarışlarda və Olimpiya Oyunlarında əldə etdiyi nailiyyətlərdən danışdı: "Əlbəttə, Azərbaycan haqqında çox söz söyləyə bilərəm. Lakin bilirəm ki, vaxt məhduddur və daha çox idman və Olimpiya Hərəkatının inkişafı sahəsindəki siyasətimiz haqqında danışmaq istərdim. Bu, Azərbaycan üçün prioritetlərdən biridir. Biz Olimpiya dəyərlərinin təşviqi üçün çox işlər görürük. Bunlar dostluq, sülh və əməkdaşlıq dəyərləridir. Eyni zamanda, biz praktiki olaraq, müasir idman infrastrukturunun yaradılmasına böyük sərmayələr qoyuruq. Son 10-15 il ərzində Azərbaycanda 50-dən artıq müasir Olimpiya Mərkəzi tikilib. Yeri gəlmişkən, ilk Olimpiya İdman Mərkəzi Azərbaycanda 2000-ci ildə tikilmişdir və Beynəlxalq Olimpiya Komitəsinin fəxri prezidenti, o vaxt Avropa Olimpiya Komitəsinin prezidenti olan cənab Jak Roqq həmin ilk idman mərkəzinin açılış mərasimində iştirak etmişdir."

*(ardı var)*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Fiziki idman növlərinin əsasında atletika dayanır

***"Atletika" (yunan dilində "atletikos" sözündəndir, mənası "mahir" deməkdir) qüvvə və çeviklik tələb edən hərəkətlər məcmusudur. Qədim Yunanıstanda böyük fiziki qüvvəyə malik şəxsləri - idman yarışlarının iştirakçılarını "atlet" adlandırırdılar. İlk qaçış yarışı eramızdan əvvəl Misirdə təşkil edilmişdir. Amma tarixin ən məşhur atletika yarışları, ilk dəfə qədim Yunanıstanda təşkil edilən Olimpiya Oyunlarında reallaşıb. Qədim Olimpiya Oyunları, yalnız idman yarışlarının təşkil edildiyi bir fəaliyyət kimi deyil, eyni zamanda idmanın sənət və mədəniyyətlə birləşdiyi böyük şənliklər idi. Atletlər yarışlardan 10 ay əvvəl hazırlanmağa başlayar, hazırlığın sonuncu mərhələsini Olimpiya Oyunlarının təşkil edildiyi yerdə (indiki Atletlər Kəndi) keçirərdilər. Atletika - bir idman növü olmaqla yanaşı, həm də digər fiziki hazırlıq tələb edən növlərin hərəkətverici qüvvəsini təşkil edir.***

***İdmanın müasir növlərinin inkişafı müəyyən proseslərdən keçsə də, bəzi dəyişikliyə uğrasa da, "yüngül atletika" ifadəsi olduğu kimi qalıb. İndi o, təbii tətbiqi hərəkətləri - idman yerişini, müxtəlif məsafələrə sədlərsiz və sədləri dəf etməklə qaçmağı, idman alətləri atmağı, uzunluğa və hündürlüyə tullanmağı, çoxnövçülüyü əhatə edir. Bununla belə, "yüngül atletika" termini şərtidir. Əsrlər keçərək bizə gəlib çatan həmin termin idmanın bu növünə daxil olan hərəkətlərin məzmununu dəqiq əks etdirmir.***

Olimpiya Oyunlarında kişi atletlər maneəsiz cığırlarda 100, 200, 400, 800, 1500, 5 min və 10 min metr məsafələrə qaçmaq, marafon yürüşü (42 kilometr 195 metr), sədləri dəf etməklə 110 və 400 metr məsafələrə, maneələri dəf etməklə 3 min metr məsafəyə qaçmaq, 4x100 metr və 4x400 metr məsafələrə estafet qaçışı, 20 və 50 kilometr məsafələrə idman yerişi, uzunluğa, hündürlüyə, şüvüllə hündürlüyə tullanmaq, üçtəkanla uzunluğa tullanmaq, dəmir lövhə, nizə, çəkicatma, nüvəitələmə və onnövçülük üzrə yarışlarda mübarizə aparırlar.

Qadınlar isə Olimpiya Oyunlarında 100, 200, 400 və 800 metr məsafələrə qaçmaq, sədləri dəf etməklə 80 metr məsafəyə qaçmaq, 4x400 metr məsafəyə estafet qaçışı, uzunluğa və hündürlüyə tullanmaq, şüvüllə hündürlüyə tullanmaq, dəmir lövhə və nizə atmaq, nüvəitələmək və beşnövçülük üzrə yarışırlar.

Məsələn, 2 saat 15 dəqiqə ərzində 42 kilometrdən çox məsafəni qət etmək, yaxud 8 metrdən artıq uzunluğa tullanmaq yüngül, asan bir işdirmi? Əlbəttə, yox!

## "İdmanının kraliçası" ölkəmizdə qədim ənənələrə malik olan bir idman növüdür

Azərbaycan Atletika Federasiyası (AAF) 1923-ci ildə yaradılıb. Amma bu funksiyanı uzun müddət Bədən Tərbiyəsi və İdman Ali Şurası yerinə yetirib. Federasiya 1992-ci ildən yenidən təsis edilib. Maraqlıdır ki, federasiya təsis olunduqdan sonra Avropa Atletika Assosiasiyasına (EAA) yox, Asiya Atletika Federasiyasına üzv qəbul olunub. 1990-cı illərin əvvəllərində atletika Avropada çox güclü inkişaf etdiyi halda, Asiyada təzə-təzə inkişafa başlayırdı. Demək olar ki, Asiyada Yaponiyadan başqa heç bir ölkədə atletika irəliləyişə nail olmamışdı. Bu halda Azərbaycan atletlərinin Asiyada nəyəsə nail olmaq imkanları daha çox idi. Görünür, elə buna görə də AAF-ın o vaxtkı rəhbərliyi Asiya Atletika Federasiyasına üzv olmağı daha münasib sayıb. Ölkəmiz müstəqillik qazandıqdan sonra - 1992-ci ildə AAF yenidən təsis olunub. Atletika Federasiyası 1993-cü il iyulun 16-da Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. 1996-cı ildə Çingiz Hüseynzadə AAF-ın prezidenti seçildi. Onun federasiya prezidenti seçilməsindən sonra ilkin addım kimi Asiyadan Avropaya keçid məsələsi önə çəkilib. 1999-cu ildə İspaniyanın Sevilya şəhərində keçirilən İAAF-ın konqresində isə federasiyamızın EAA-ya üzvlüyü reallaşıb. Azərbaycanda atletika idmanının təşəkkülü XX əsrin əvvəllərinə təsadüf edir. 1920-ci ildən sonra Bakıda və ətraf qəsəbələrdə atletika bölmələri fəaliyyət göstərməyə başlayıb. Bakıda ilk atletika yarışları 1922-ci ildə keçirilib. 1923-cü ilin sonu, 1924-cü ilin əvvəllərində Azərbaycanın bölgələrində - Lənkəran, Quba, Zaqatala, Gəncədə və digər yerlərdə atletika ilə məşğul olmağa başlanılıb.

Həmin dövrdə respublikada 50-dən çox dərnəkdə 4500 adam idmanla məşğul olurdu. 1925-ci il noyabr ayının 6-7-də şəhər stadionunda atletika üzrə Həmkarlar İttifaqının idmançılarının yarışı keçirilib. Yarışlar beşnövçülük üzrə keçirildi və artıq müxtəlif növlərdə diqqəti cəlb edəcək nəticələr göstərildi.

1928-ci ildə bütün ölkə Birinci Ümumittifaq Spartakiadasına hazırlaşırdı. Azərbaycan atletləri də bu yarışdan kənarda qalmadılar. Bu mötəbər yarışlardan əvvəl Azərbaycan, sonra isə Zaqafqaziya spartakiadaları keçirildi. O vaxt üçün bunlar böyük idman bayramları hesab olunurdu.

Azərbaycan atletləri ilk SSRİ rekordunu 1934-cü il iyulun 25-də müəyyən etdilər. Həmin rekordun sahibi Q.Qaneker oldu. O, sədləri dəf etməklə 80 m məsafəyə qaçışda 13,5 san. nəticə göstərdi. Bundan on gün sonra isə H.Mityanin sədləri dəf etməklə 400 m məsafəyə qaçışda ölkə rekordunu (57,8 san.) yenilədi. 1949-cu ildə İsay Popkov Bakı şəhərində keçirilən beynəlxalq yarışda dünya rekordunu təzələyib. Qadınlar arasında ilk azərbaycanlı atlet Ziba Ələsgərova 1959-cu ildə dünya rekordçusu adını qazandı.

Atletikanın uzununa tullanma növü üzrə idman ustası Xandadaş Mədətov SSRİ çempionu (1950, 7m. 15sm) və ümumittifaq rekordçusu (1952, 7m. 50sm) olub.

Yuri Konovalov, L.Bartenyev, V.Tokaryev, V.Suxaryevdən ibarət komandamız 1956-cı ildə Avstraliyanın Melburn şəhərində keçirilən XVI Yay Olimpiya Oyunlarında 4x100 metr estafet qaçışında 39, 8 nəticə göstərərək, gümüş medal əldə edib.

Respublikamızın atletika üzrə məşqçiləri 1957-ci ildə 5 idman ustası və 50 nəfərdən artıq yüksək dərəcəli idmançı hazırlayıb. Bacarıqlı atletlərin hazırlanmasında SSRİ-nin əməkdar məşqçisi Əfqan Səfərovun, məşqçilərdən Ü.Qasımovun, A.Şepelevin və başqalarının adını çəkmək olar. 1957-ci ilin statistik məlumatına əsasən respublikamızda atletika üzrə 5 ümumittifaq və 37 respublika dərəcəli idman hakimi var idi.

Təəssüf ki, 1980-ci illərin sonları - 1990-cı illərin əvvəllərində Azərbaycanda baş verən hadisələr ölkə idmanına mənfi təsir göstərib. Həmin illərdə bir çox mütəxəssislər, idmançılar ümumiyyətlə, idmandan ayrılıblar. Ölkəmiz müstəqillik qazandıqdan sonra isə bütün idman növlərində yüksəliş dövrü başladı. Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda bütün sahələrdə, o cümlədən idman sahəsində də intibah təşəkkül tapdı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda idmanın inkişafı üçün lazım olan şərait yaradıldı. Dövlət qayğısı ilə əhatə olunan idmançılarımız beynəlxalq arenalarda güclü rəqibə çevrildilər. Bu yüksəliş atletika növünün inkişafına da öz təsirini göstərdi. Azərbaycan Atletika Federasiyasının (AAF) yaradılması atletlərimizin yenidən bir araya gəlməsinə, məşqlərin, təlim-məşq toplanışlarının bərpasına şərait yaratdı. Respublikamızın uşaq, yeniyetmə və gəncləri bu növlə daha həvəslə məşğul olmağa başladılar. AAF təsis olunduqdan sonra Asiya Atletika Federasiyasına üzv qəbul olundu. Beynəlxalq əlaqələrin yaradılması ölkəmizdə atletikanın daha geniş şəkildə inkişafına zəmin yaratdı. Atletlərimiz mötəbər turnirlərdə mübarizə aparmağa başladılar. Respublikamızın uşaq və gənclərinin atletikaya kütləvi şəkildə cəlb olunması prosesi sürətləndi. Eyni zamanda uğurlarımız artdı. 1997-ci ildə atletimiz Sergey Boçkov yeniyetmələr arasında Asiya birinciliyində bürünc medal əldə etdi. AAF-ın həyata keçirdiyi tədbirlər federasiyanın beynəlxalq əlaqələrini daha möhkəmləndirdi. Belə ki, 1999-cu ildə İspaniyanın Sevilya şəhərində keçirilən Beynəlxalq Atletika Assosiasiyaları Federasiyalarının konqresində AAF Avropa Atletika Assosiasiyasının üzvlüyünə qəbul edildi. Bu idman növünün ölkəmizdə daha da inkişaf etdirilməsi, atletikanın uşaq, yeniyetmə və gənclər arasında kütləvi şəkildə yayılmasına səbəb oldu. Yaradılan şərait Azərbaycanın gənc atletlərinin beynəlxalq turnirlərdə uğurlu çıxışında müstəsna rol oynadı.Tanınmış atletimiz Ramil Quliyev qazandığı uğurlarla atletikanın ölkəmizdə sürətlə inkişaf etdiyini göstərdi. Ramil Avropa Yeniyetmələrinin Olimpiya Festivalında qızıl medal, dünya çempionatında isə gümüş medal əldə etdi. O, Tələbələrin Yay Universiadasında və gənclər arasında Avropa çempionatında 200 metr məsafəyə qaçışda qızıl medala yiyələndi.



1980-90-cı illərdə Azərbaycan atletləri SSRİ və beynəlxalq yarışların mükafatçıları sırasında yer alıblar. Həmyerlimiz Vasif Əsədov üçtəkanla tullanmada üç qat SSRİ (1983, 1984, 1988) çempionu adına layiq görülüb, həmçinin Avropa çempionatının bürünc (1988) medalını qazanıb.

Təəssüf ki, 1990-1991-ci illərdə respublikada baş verən xaos, özbaşınalıq bütün sahələrdə olduğu kimi, idman sahəsində də acınacaqlı vəziyyətin yaranmasına səbəb oldu. Atletikanın vəziyyəti də olduqca çətin idi. Aparıcı məşqçilərin və idmançıların Azərbaycanı tərk etməsi, maliyyə problemləri atletika üzrə respublika yarışlarının təqvimini tam həcmdə həyata keçirməyə imkan vermirdi.

Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra vəziyyət normallaşdı. Azərbaycan idmançıları böütün idman növlərində, o cümlədən atletika üzrə keçirilən beynəlxalq yarışlarda uğurla çıxış etməyə başladılar. Heydər Əliyevin təşəbbüsü nəticəsində bu növ üzrə yarışların təşkili üçün lazımi şərait yaradıldı. Gənclər atletikaya maraq göstərməyə başladılar. 1993-cü ildən sonra Azərbaycan atletləri müstəqil respublikamızı dünya və Asiya çempionatlarında təmsil etməyə başlayıblar. İlk qələbə həmin il İranın paytaxtı Tehran şəhərində keçirilən beynəlxalq yarışda əldə olundu. Elvira Cabbarova 60 m məsafədə qalib gələrək Azərbaycan rekordunu da müəyyənləşdirib.

1993-cü ildə Aleksey Fatyanov Filipində (Manila) keçirilən Asiya çempionatında üçtəkanla tullanma növündə qızıl medal əldə edib.

O, 1993-cü ildə Znamenski qardaşları beynəlxalq turnirində üçtəkanla tullanmada ikinci yeri tutub. Beynəlxalq yarışlarda əldə olunan nəticələr uşaq, yeniyetmə və gənclərin atletika ilə məşğul olmasına təkan verdi. Respublikamızın həm paytaxtında, həm də bölgələrdə tez-tez təşkil olunan atletika yarışları iştirakçıların təcrübə qazanmasına, fiziki sağlamlıqlarının qorunmasına imkan yaradıb.

## Atletikanın digər idman növlərinə təsiri az deyil

Atletika beynəlxalq miqyasda çox böyük nüfuza malikdir. Bu növ ölkəmizdə də uşaq və gənclərin maraq göstərdiyi idman növlərindən biridir. Qeyd edək ki, dünyada "idmanın kraliçası" adlandırılan atletikanın digər növlərdən fərqi onun dövri idman növlərinə aid olmasındadır. Bu növdə bir-iki ilə yüksək səviyyəli idmançı hazırlamaq o qədər də asan deyil. Hər hansı beynəlxalq səviyyəli idmançının hazırlanması xeyli vaxt tələb olunur. Atletikada rəqibə yox, zamana və məsafəyə qalib gəlməlisən. Bu, doğrudan da, belədir. Məsələn, qaçış zamanı idmançılar bir-biriləri ilə yox, zamanla mübarizə aparırlar. Qeyd edək ki, istənilən fiziki idman növlərinin əsasında atletika dayanır. Mütəxəssislərin fikrincə, atletika bütün növlərdə, qismən də olsa, özünü göstərir. Daha doğrusu, istənilən idman növündə mübarizə aparan idmançı, ən azı, təlim-məşqlər zamanı qaçışla, tullanma ilə məşğul olur. Bu baxımından atletikanın digər idman növlərinə təsiri az deyil. Təhlillər göstərir ki, bədən tərbiyəsi və idmana həvəs göstərənlərin 99 faizi qaçışla məşğul olur. Mütəxəssislərin fikrincə, atletika növünə daxil olan qaçış insanın sağlamlığına böyük təsir edir. Praktik olaraq, qaçışın insan orqanizminə heç bir əks təsiri yoxdur. O, bütün orqanizminin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir: qan dövranını yaxşılaşdırır , bütün əzələ qruplarını formaya salır. Ümumiyyətlə, qaçış formada qalmaq üçün ən yaxşı vasitədir. Qaçışın ən böyük üstünlüyü sarsıntını aradan qaldırmaq qabiliyyətinə malik olmasıdır. Bu növdə məşqlərə tədricən başlamaq və vaxt keçdikcə fiziki yükü müəyyən bir həddə çatdırmaq lazımdır. Lakin həddindən artıq fiziki gərginlik orqanizmi yorur. Müətxəssislərin fikrincə, uşaqlar qaçışla məşğul olmaq üçün, ilkin mərhələdə, sadə üsullardan istifadə etməlidirlər. Yəni asta-asta qaçmaq lazımdır. Məhz bu cür qaçış növü oynaqlar üçün təhlükəsizdir. Mütəxəssislər hesab edirlər ki, qaçışa başlamazdan əvvəl, sadə gimnastik hərəkətlər yerinə yetirilməlidir. Məhz bundan sonra müxtəlif qaçış məsafəsi seçmək olar. Qaçış qrafikini hər kəs özü seçə bilər. Şübhəsiz, qaçışla yanaşı, atletikanın digər növləri də, uşaq və gənclərin fiziki sağlamlığının qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Respublikamızda uşaq və gənclərin fiziki sağlamlığının qorunması, onların kütləvi şəkildə yarışlara cəlb olunması üçün hər il müxtəlif kütləvi tədbirlər təşkil olunur. Paytaxtımızda hər il təşkil olunan Olimpiya Günü məhz bu cür tədbirlərdəndir. Olimpiya Günü 1994-cü ildən təntənəli şəkildə qeyd edilir. Hər il keçirilən bu tədbirdə minlərlə uşaq, yeniyetmə və gənc həvəslə iştirak edir. İlk üç yeri tutan iştirakçılar xüsusi mükafatlar və Beynəlxalq Olimpiya Komitəsinin (BOK) diplomları ilə təltif olunurlar. Bütün iştirakçılara BOK-un sertifikatı verilir.

Atletikanın daha bir xüsusiyyəti vardır ki, ona nə futbolda, nə hokkeydə, nə də başqa bir idman növündə rast gəlirik. Futbol yarışında bir idmançının zəif, inamsız oyunu digərlərinin səyi nəticəsində gözə görünmürsə, hiss olunmursa, atlet ancaq öz qüvvəsinə ümid bəsləyir. Burada başqalarının hesabına

irəli getmək mümkün deyildir. Məqsədə çatmaq üçün hər kəs özü zəhmət çəkməlidir. Fiziki kefiyyətlərlə yanaşı, bütün bu xüsusiyyətlər iradə, qətiyyət yaradır, məşq prosesinə yaradıcı münasibət bəsləməyə məcbur edir. Beləliklə, atletika "yüngül" adlansa da, burada asan yolla yüksək ustalığa nail olmaq heç də asan deyildir.

Biz hamımız yeriyə bilirik. Lakin bizim hər birimizin yerişi digərinin yerişindən fərqlənir. Məsələn, adi insan yarım saat ərzində 5 kilometr məsafə qət edə bilərmi? Yəqin ki, yox. Halbuki idman yerişində bu, gənclər arasında birinci dərəcə normasına bərabərdir. İdman yerişi adi yerişdən hərəkətlərin xarakteri ilə fərqlənir ki, bu da yüksək sürətə nail olmağa imkan verir. Adi piyada bir saat ərzində orta hesabla 5-6 km yol gedirsə, məşq görmüş, yeriş texnikasına yaxşı bələd olan atlet həmin müddətdə bundan iki dəfə yarım çox məsafə qət edə bilir!

Bacarıqlı yeriş ustalarının hərəkətləri təbiidir, sərbəstdir. Onlar başlarını, çiyinlərini, bədənlərini düz və sərbəst saxlayırlar, yalnız gövdələrini bir qədər qabağa əyirlər. Əlləri fəal surətdə irəli-geri hərəkət edir. Addımları geniş və yüngül olur. Heç bir artıq hərəkətə yol vermirlər! Bütün hərəkətlərin bir-biri ilə uy-ğunlaşdırılması, ahəngdarlığı, əzələlərin məharətlə gah gərginləşdirilməsi, gah da boşaldılması, dərin tənəffüs atletə öz qüvvəsini qənaətlə işlətməyə və buna görə də uzun müddət yüksək yeriş sürətini mühafizə etməyə imkan verir.

Sürətlə qaçmaq üçün düzgün qaçmağı mümkün qədər tez öyrənmək lazımdır. Burada başlıca məsələ uzun müddət qaçmağa alışmaq deyil, sərbəst, yüngül, eyni zamanda sürətli qaçmağı bacarmaqdır. Məşhur sprinterlərin təcrübəsi bunu bir daha təsdiq edir. Ölkəmizin mütəxəssisləri qısa məsafələrə qaçan keçmiş sovet və ABŞ idmançılarının idman həyatını təhlil edərkən məlum olmuşdur ki, həmin atletlərin hamısı 100 metr məsafəyə qaçmaqda ilk vaxtlar təxminən eyni nəticələr (11, 12, 3 sn) göstəriblər. Yalnız 7-9 il gərgin məşq etdikdən sonra rekord nəticələr göstərmək mümkün olub.

Atletikada texnikaya daha çox fikir vermək lazımdır. Hər bir hərəkəti səbirlə və inadla, dəfələrlə təkrar etmək, onu mümkün qədər dəqiq yerinə yetirmək vacibdir. Məşqlərin mümkün qədər rəngarəng olması da önəmli məsələdir. Müşahidələr göstərir ki, atletikanın yalnız bir növü ilə məşğul olmaq nəticəsində bədən birtərəfli inkişaf edir, bu isə yüksək nailiyyətlər qazanmağa imkan vermir. Müxtəlif növlər üzrə məşqlər isə gələcək qələbələrin etibarlı bünövrəsini qoymaq deməkdir. Beləliklə, idman sahəsində ilk addımlar sağlamlığın möhkəmləndirilməsinə, ümumi fiziki inkişaf məqsədlərinə xidmət edir. Atlet nə qədər güclü, çevik, dözümlü olsa, məqsədinə bir o qədər tez çatar.

İdman yetkinliyini yoxlamaq üçün yarışlar ən yaxşı imtahandır. Yarışlara ciddi və düşünülmüş qaydada hazırlaşmaq əsas şərtdir. Təcrübəsiz idmançılar yarışlarda çox zaman zəif nəticələr göstərirlər. Bu müvəffəqiyyətsizliklər ilk növbədə yarışlara düzgün hazırlaşa bilməməyin nəticəsidir. Bəziləri itirilmiş vaxtın əvəzini çıxmaq üçün həddindən çox gərgin məşq edir, bəzən isə əksinə, yaxşıca istirahət edib qüvvə toplamağı üstün tuturlar. Bunların hər ikisi səhvdir. Hədsiz gərginlik də, günlərlə davam edən passiv istirahət də idmançnın yarışlara hazırlıq səviyyəsinə mənfi təsir göstərir.

Məşğələlərin məzmunu ixtisaslaşmadan, yəni atletikanın hansı növü üzrə yarışlara hazırlaşmağınızdan asılıdır. İdman alətləri atanlar əsas diqqəti fiziki gücünü artırmağa, tullanma ilə məşğul olanlar sıçrayış və çeviklik keyfiyyətlərini inkişaf etdirən hərəkətlərə daha çox fikir verirlər. Sprinterlər isə mümkün qədər çox qaçmaqla yarışlara hazırlaşırlar.

Yarış haqqında, qarşıdakı mübarizə, rəqiblər haqqında düşüncələr idmançıya psixoloji təsir göstərir. Təcrübəli idmançılar bu fikirlərdən ayrılmaq üçün kinoya, teatra gedir, stolüstü tennis və ya şahmat oynayırlar. Bunlar yarışqabağı əmələ gələn psixoloji sarsıntıları tez bir zamanda aradan qaldırır.

Müvəffəqiyyətsizliyə uğrayanda idmançı ruhdan düşməməlidir. Qələbələrə doğru gedən yol məğlubiyyətlər üzərindən keçir. Səhvləri təhlil etməyi öyrənmək lazımdır ki, gələcəkdə onlara bir də yol verilməsin. Heç zaman unutmaq olmaz ki, yalnız, inadcıl, səbirli, iradəli adamlar, öz arzusunu inamla həyata keçirməyi bacaranlar finiş xəttində qələbə sevincini duya bilərlər.

***Dilqəm Quliyev,***
***professor***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Gənclər və İdman Nazirliyində mətbuat konfransı keçirilib



Sentyabrın 5-də Gənclər və İdman Nazirliyində (GİN) taekvondo üzrə milli komandamızın dünya çempionatında və idmançılarımızın Tələbələrin 29-cu Dünya Yay Universiadasında əldə etdikləri nəticələrlə bağlı mətbuat konfransı keçirilib.

Tədbirdə Gənclər İdman Nazirliyinin İdman şöbəsinin müdiri Fərid Mansurov, mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova, Azərbaycan Taekvondo Federasiyasının (ATF) icraçı direktoru Nağı Səfərov, taekvando, cüdo və atletika yığma komandalarımızın məşqçilər korpusu, idmançılar iştirak ediblər.

GİN-nin İdman şöbəsinin müdiri Fərid Mansurov idmançılarımızı əldə etdikləri uğurlu nəticələrlə bağlı təbrik edib. O, bundan sonra da təmsilçilərimin beynəlxalq yarışlarda yüksək səviyyədə çıxış edəcəklərinə əmliyini ifadə edib. Azərbaycan Taekvondo Federasiyasının icraçı direktoru Nağı Səfərov taekvondonun Azərbaycanda ildən-ilə daha da inkişaf etdiyini, yüksək nəticələr qazanıldığını bildirib: "Taekvondoçularımız dünya çempionatında 2, universiadada 5 medal qazanıblar. Millimiz daha da yaxşı nəticə göstərmək gücündədir. Medallarımızın sayı daha çox ola bilərdi. Ancaq dünya çempionatında 1 qızıl və 1 gümüş medal da böyük nəticədir. Sevindirici haldır ki, mundialda mükafatlarımızın sayı artan templə davam edir. Komandamızı qarşıda Qran-pri turniri də gözləyir".

Tələbələrin 29-cu Dünya Yay Universiadasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik edən GİN-nin sektor müdiri Aydın Məmmədov yığma komandamızın yüksək səviyyədə çıxış etdiyini vurğulayıb: "Universiadada 19 idmançı ilə iştirak edirdik. Komandamız 3 qızıl, 1 gümüş, 4 bürünc medalla 24-cü yerdə qərarlaşdı. Qeyd edim ki, universiadada 134 ölkənin idmançıları 21 idman növü üzrə mübarizə aparırdılar. Orada bir çox görüşlər də keçirdik. Görüşlərdə idmançı və rəsmilər Azərbaycanda keçirilən mötəbər idman tədbirlərinin çox böyük peşəkarlıqla təşkil edildiyini qeyd etdilər".

ATF-nin vitse-prezidenti Rəşad Əhmədov da idmançılarımızın əldə etdiyi nəticələrin uğurlu olduğunu, yığma komandamızın növbəti yarışlarda daha çox medal qazanacağına inandığını qeyd edib.

Universiadada iştirak etmiş cüdo komandamızın baş məşqçisi Azər Şıxəlizadə yarışlara qatılan 3 idmançımızdan 2-nin medal qazanmasının yüksək nəticə olduğunu bildirib: "Biz istəyirdik ki, 3 idmançımızın hər biri medal qazansın. Lakin 1 qızıl və 1 bürünc medala sahib olduq".

Tələbələrin 29-cu Dünya Yay Universiadasında atletika üzrə yarışda qızıl medal qazanan Nazim Babayev bu ilin onun üçün uğurlu olduğunu deyib: "Mən IV İslam Həmrəyliyi Oyunları, Avropa çempionatı və Tələbələrin 29-cu Dünya Yay Universiadasında qızıl medal qazandım. Bir sözlə, 2017-ci il mənim üçün uğurlu ildir".

Daha sonra tədbirdə iştirak edən digər idmançılar fikirlərini bildiriblər.

Sonda jurnalistlərin sualları cavablandırılıb.



## Zəka sahiblərimiz qitə birinciliyində

Sentyabrın 5-də Rumıniyanın Mamaya şəhərində altı yaş kateqoriyasında: 8, 10, 12, 14, 16 və 18 yaşına qədər oğlanlar və qızlar arasında şahmat üzrə Avropa birinciliyi start götürüb.

Yarışda ümumilikdə mindən çox şahmatçı qalib adı uğurunda mübarizə aparır. Komandamız qitə birinciliyində müxtəlif yaş kateqriyaları üzrə 28 şahmatçı ilə təmsil olunur.

İsveçrə sistemi üzrə keçirilən yarışlar 9 turdan ibarət olacaq.

Çempionata sentyabrın 14-də yekun vurulacaq.

## Gimnastlar Dünya kuboku uğrunda yarışıblar

Bolqarıstanın Varna şəhərində kişi və qadın idman gimnastikası üzrə Dünya kuboku yarışı keçirilib.

20 ölkədən idmançıların iştirak etdiyi yarışda ölkəmizi Murad Ağarzayev, Bence Talas, Yuliya İnşina, Marina Nekrasova və Yekaterina Tişkova təmsil ediblər. İdmançılarımızdan Bence Talas halqalarla hərəkətlər üzrə yarışda finala yüksəlməyi bacarıb. O, 13.700 xalla səkkizinci olub. Gimnastlarımızdan ən yaxşı nəticəni Yulia İnşina göstərib. Onun sərbəst hərəkətlərlə çıxışı 12.550 xalla qiymətləndirilib və gimnastımız beşinci pillədə qərarlaşıb. Dayaqla tullanma hərəkətlərində də final mərhələsində çıxış edən Yuliya İnşina altıncı, Marina Nekrasova isə səkkizinci olublar. Marina Nekrasova müxtəlif hündürlüklü qollardakı yarışın finalında səkkizinci, Yuliya İnşina isə gimnastika tirində səkkizinci yeri tutub.



## Avropa çempionatında uğurlu çıxış

Ukraynanın Koblevo şəhərində universal döyüş üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizi Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov və yığma komandanın məşqçisi Elşən İsmayılovun rəhbərliyi altında 17 idmançı təmsil edib.

28 ölkənin iştirakı ilə keçirilən yarışda komandamızın üzvləri böyüklər arasında 4 qızıl, 3 gümüş, 3 bürünc medal qazanıblar. Gənclər arasında yarışlarda idmançılarımız 3 qızıl, 1 gümüş, 1 bürünc, yeniyetmələrin mübarizəsində isə 1 qızıl, 1 gümüş, 2 bürünc medal əldə ediblər.

Böyüklər arasında qızıl medalları komandamızın aktivinə Nicat Əliyev (75 kq, layt və klassik versiyalarda), Səlim Salmanov (90 kq, layt versiya) və Tahir Məsimov (95 kq, layt versiya) yazdırıblar.

## Beynəlxalq turnir bu gün başlayır

Bu gün Binə qəsəbəsindəki "Elite Horse and Polo Club"da "CBC Sport Arena Polo" üzrə növbəti Dünya kuboku start götürüb. Ölkəmizi bu yarışda təmsil edəcək "Elite horse and polo club" komandası qələbə uğrunda mübarizəyə tam hazırdır. Təmsilçimizin baş məşqçisi Namiq Orucov verdiyi açıqlamasında məşqlərin plana uyğun getdiyini bildirib: "Komandamız gündə iki dəfə olmaqla məşq keçib. Yarışa hazırıq. Heyətimizdə heç bir itki yoxdur. Əhval ruhiyyəmiz yaxşıdır. Azərbaycan komandası polo üzrə qatıldığı bütün yarışlarda ancaq çempionluq üçün yarışır. Bu dəfəki yarışda ümidləri doğruldacağımıza inamımız böyükdür". Qeyd edək ki, beynəlxaq turnirdə komandamızın ilk rəqibi Amerika Birləşmiş Ştatlarının "Grand champions polo club" komandası olacaq.

## Həndbolçularımız Türkiyədə yarışacaqlar

Bu gün Türkiyənin Ardaşen şəhərində həndbol üzrə turnir start götürəcək. Turnirdə dörd komanda qalib adı uğrunda mübarizə aparacaq. Yarışda Azərbaycanı qadınlardan ibarət "Azərsu" və "Azəryol" klubları təmsil edəcəklər. Türkiyədən isə "Zaqnosspor Trabzon" və "Ardaşen GSK" kollektivləri yarışacaqlar.

Turnir komandamız üçün XXV Azərbaycan çempionatına hazırlıq məqsədi daşıyır.

Yarışa sentyabrın 10-da yekun vurulacaq.

## Voleybolçularımız İtaliyaya məğlub oldular

Avropa çempionatına hazırlığı davam etdirən qadın voleybolçulardan ibarət Azərbaycan yığması növbəti yoxlama oyununu keçirib.

Baş məşqçi Faiq Qarayevin yetirmələri Milan şəhərində İtaliya millisi ilə qarşılaşıblar. Görüş 3:0 (18:25, 23:25, 24:26) hesabı ilə meydan sahiblərinin xeyrinə yekunlaşıb.

Qeyd edək ki, komandamızın İtaliya millisi ilə daha bir neçə yoxlama oyunu keçirməsi nəzərdə tutulub.

## Yaşar Vahabzadə istefa verdi

21 yaşınadək futbolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Yaşar Vahabzadə istefa verib. Mütəxəssisin müqaviləsi qarşılıqlı razılıqla ləğv edilib. Yığmamızın AÇ-2019-un seçmə mərhələsi çərçivəsində İsrail və İrlandiya ilə oyunlarından sonra baş məşqçi AFFA-nın baş katibi Elxan Məmmədova hesabat təqdim edib. Hər iki qarşılaşmadakı məğlubiyyətin (1:3) hesabatı dinlənildikdən sonra qarşılıqlı razılıq əsasında müqaviləyə xitam verilməsi qərara alınıb.

Qeyd edək ki, Yaşar Vahabzadə U-21-in baş məşqçisi kimi seçmə mərhələlərdə 15 oyun keçirib. Bu görüşlərdən 2-də qalib gəlib, 3-də heç-heçə edən komanda 10 dəfə məğlub olub.

# Millimizdən böyükhesablı qələbə: 10 xalla 3-cü pillədə

*DÇ-2018-in seçmə mərhələsi çərçivəsində C qrupunun növbəti oyunları keçirilib. Azərbaycan millisi keçirdiyi iki oyunun birində məğlub olsa da, digərində böyükhesablı qələbə qazanıb.*

### DÇ-2018-in seçmə mərhələsi

*C qrupu*

**VII tur**

**1 sentyabr**

**Norveç - Azərbaycan - 2:0**

**Qollar:** Kinq, 32 (pen.), Rəşad Sadıqov, 60 (öz qapısına).

***Oslo. "Ulleval" stadionu.***

**San-Marino - Şimali İrlandiya - 0:3**

**Qollar:** Magennis, 70; 75, Deyvis, 78.

**Çexiya - Almaniya - 1:2**

**Qollar:** Darida, 78 - Verner, 4, Hummels, 88.

Azərbaycan millisi səfərdə Norveç yığması ilə qarşılaşıb. Bu oyuna qədər ardıcıl 3 dəfə məğlub olan Robert Prosineçkinin yetirmələri uğursuzluq zolağından çıxa bilməyərək seriyanı 4-ə çatdırıb. Komandamız ilk oyunda Bakıda məğlub etdiyi rəqibinə 0:2 hesabı ilə uduzub. Bədavi Hüseynovun rəqibə qarşı kobudluğu ilə penalti vurmaq şansı qazanan meydan sahibləri oyunun 32-ci dəqiqəsində hesabı açıblar. Kinq zərbəni dəqiq yerinə yetirib. İkinci hissədə isə Rəşad Sadıqov topu öz qapısına yollayıb.

Qrupumuzun digər matçında San-Marino millisi Şimali İrlandiya komandasına məğlub olub - 0:3. Çexiya - Almaniya komandalarının oyununda qonaqlar 1:2 hesablı qələbəyə seviniblər.





**VIII tur**

**4 sentyabr**

**Azərbaycan - San Marino - 5:1**

**Qollar:** Əfran İsmayılov, 20; 57, Araz Abdullayev, 25, Cevoli, 71 (öz qapısına), Rəşad Sadıqov, 81 - Palazzi, 74.

**Hakimlər:** Nikola Dabanoviç, Milutin Djukiç, Yovitsa Tatar, Pavle Radovanoviç (hamısı Monteneqro).

***Bakı. 8-ci km stadionu.***

**Şimali İrlandiya - Çexiya - 2:0**

**Qollar:** Evans, 28, Brunt, 41.

**Almaniya - Norveç - 6:0**

**Qollar:** Özil, 10, Draksler, 17, Verner, 21; 40, Qoretzka, 50, Qomez, 79.

C qrupunun növbəti matçında yığmamız doğma azarkeşlər önündə San-Marino millisi ilə münasibətlərinə aydınlıq gətirib. Ardıcıl 4 dəfə məğlub olan Robert Prosineçkinin yetirmələri uğursuzluq zolağından böyükhesablı qələbə ilə çıxıblar. Millimiz səfərdə minimum hesabla məğlub etdiyi rəqibə Bakıda 5 top vurub.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| *1. Almaniya* | *8* | *8* | *0* | *0* | *35-2* | *24* |
| *2. Ş. İrlandiya* | *8* | *6* | *1* | *1* | *16-2* | *19* |
| ***3. Azərbaycan*** | ***8*** | ***3*** | ***1*** | ***4*** | ***8-12*** | ***10*** |
| *4. Çexiya* | *8* | *2* | *3* | *3* | *10-9* | *9* |
| *5. Norveç* | *8* | *2* | *1* | *5* | *8-16* | *7* |
| *6. San-Marino* | *8* | *0* | *0* | *8* | *2-38* | *0* |

Komandamız "cırtdan" ölkə təmsilçisi üzərində qələbə qazanaraq tarixinin rekorduna imza atıb. Belə ki, millimiz indiyədək heç vaxt bir seçmə mərhələdə 10 xal toplamayıb. Bununla da, yığmamız 4 il əvvəl imza atdığı rekordu "kölgədə" qoyub. Millimiz DÇ-2014-ün seçmə mərhələsində 9 xal əldə etmişdi. Qarşıda hələ iki matçı olan komandamız Çexiya millisi ilə ev və Almaniya yığması ilə səfər görüşlərində rekordu daha da yaxşılaşdıra bilər.

San-Marino ilə oyunda qazanılan 3 xalla həm də qələbə rekordu müəyyənləşib. İndiyədək yığmamız heç vaxt seçmə mərhələdə 3 dəfə qələbə qazanmamışdı. Bundan başqa, Azərbaycan millisi tarixində ilk dəfə 5 qol vurub. İlk rəsmi matçına 1992-ci ildə çıxan yığmamız keçirdiyi 232-ci matçda San-Marinonu 5:1 hesabı ilə məğlub edib. Bunadək bir oyunda 4-dən çox top vurmayan komandamız tarixinin ən yüksək məhsuldarlığını göstərib. Bu qələbə həm də ən böyükhesablı uğurumuzun təkrarıdır. İndiyədək millimizin rekordu 4 top fərqli qələbə idi. 1999-cu ildə Lixtenşteyni 4:0 hesabı ilə məğlub edən yığmamız 18 ildən sonra rekordunu təzələyib. Bu dəfə daha çox qol vuran komandamız yenə 4 top fərqi ilə qalib gəlib. Lakin ilk dəfə 5 qol vurmaqla 3 xal qazanıb. Maraqlıdır ki, hər iki görüş seçmə mərhələdə olub. Ümumiklikdə isə yığmamız tarixində 7-ci, seçmə mərhələlərində 2-ci dəfə böyükhesablı qələbə qazanıb. Seçmə mərhələdəki hər iki uğur 4 top fərqi ilə olub.

San-Marino millisi ilə qarşılaşma yığmamızın heyətində yeni futbolçunun debütü ilə əlamətdar olub. İkinci hissədə meydana çıxan Renat Dadaşov ilk dəfə milli forma geyinib. Almaniyanın "Ayntraxt" klubunun gənc futbolçusu yığmamızın tarixinə 223-cü futbolçu kimi düşüb. Belə ki, bunadək 231 rəsmi matç keçirən millimizin oyunlarında 222 futbolçumuz meydana çıxmışdı.

Qrupun digər matçında Almaniya yığması Norveç millisinin qapısına 6 cavabsız qol vurub. Şimali İrlandiya - Çexiya matçında isə meydan sahibləri qələbəyə seviniblər - 2:0.

***Rahib Sahiboğlu***

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54;
564-74-19